# Qədim tariximizin nişanələri



**Beynəlxalq Mədəniyyət Gününün təsis olunması "Bədii, elmi müəssisə və tarixi abidələrin mühafizəsi və qorunması haqqında" 1935-ci il aprelin 15-də Vaşinqtonda müqavilə imzalanması ilə bağlıdır. O vaxtdan dünyanın bir çox ölkəsində bu gün Beynəlxalq Mədəniyyət Günü kimi qeyd olunur.**

2008-ci ilin dekabrında isə Rusiya, İtaliya, İspaniya, Argentina, Meksika, Kuba, Latviya və Litvanın ictimai təşkilatlarının təşəbbüsü ilə 15 aprelin Dünya bayrağı altında Ümumdünya mədəniyyət günü kimi təsdiqi üçün Beynəlxalq hərəkat yaradılıb.

Hər il aprelin 15-də dünyanın bir sıra ölkələrində, o cümlədən Azərbaycanda Beynəlxalq Mədəniyyət Günü qeyd edilir. Qədim və zəngin mədəniyyətə malik olan ölkəmizdə bir-birindən maraqlı və əhəmiyyətli beynəlxalq səviyyəli mədəni tədbirlər həm bu günlə bağlı, həm də il boyu təşkil olunur.

Ölkəmizin bütün ərazilərində qədim dövrlərdən başlayaraq el sənətləri yaranıb, nəsildən-nəslə ötürülərək inkişaf etdirilib. Şamaxı, Gəncə, Gədəbəy, Naxçıvan, Mingəçevir, Qazax və ölkəmizin digər bölgələrində aparılan arxeoloji qazıntılar zamanı əldə edilmiş nümunələr bunu sübut edir. Tədqiqatlar nəticəsində məlum olub ki, tapılan metaldan düzəldilmiş sənət əsərlərinin yaşı 5000 ilə yaxındır. Aşkar edilmiş maddi-mədəniyyət nümunələri əcdadlarımızın hələ eramızdan əvvəl II minillikdə tuncdan zərif formalı qablar, xəncərlər, baltalar, kəmərlər və başqa zinət əşyaları hazırladıqlarını göstərir.

Mədəniyyəti qədim və zəngin olan Azərbaycan 1992-ci il iyunun 3-də UNESCO-ya üzv qəbul edilib, 1996-cı ildən isə əməkdaşlığa başlayıb. Ölkəmizin bir sıra mədəni irsi bu nüfuzlu beynəlxalq təşkilat tərəfindən qeydə alınıb.

Xatırladaq ki, Azərbaycanın ən qədim yaşayış məskənlərindən olan Qarabağ və Şərqi Zəngəzur əraziləri 1990-cı illərdə Ermənistanın işğalına məruz qalıb. Həmin ərazilərimizdə 13 dünya əhəmiyyətli (6 memarlıq və 7 arxeoloji), 292 ölkə əhəmiyyətli (119 memarlıq və 173 arxeoloji) və 330 yerli əhəmiyyətli (270 memarlıq, 22 arxeoloji, 23 bağ, park, monumental və xatirə abidələri, 15 dekorativ sənət nümunəsi) tarix və mədəniyyət abidələri mövcud olub. Eyni zamanda 40 mindən artıq eksponatın toplandığı 22 muzey, 4,6 milyon kitab fondu olan 927 kitabxana, 808 klub, 4 teatr və 2 konsert salonu, 31 məscid, 9 tarixi saray, 8 mədəniyyət və istirahət parkı, 4 rəsm qalereyası, 85 musiqi məktəbi işğal olunmuş ərazilərdə dağıdılıb. İşğalçı Ermənistan beynəlxalq konvensiyaları, xüsusilə "Silahlı münaqişə zamanı mədəni sərvətlərin mühafizəsi haqqında" 1954-cü il Haaqa Konvensiyasını və ona dair protokollarını, eləcə də UNESCO-nun "Ümumdünya mədəni və təbii irsin mühafizəsi haqqında" Konvensiyasını pozub. Təcavüzkar ermənilər Azərbaycanın misilsiz mədəniyyət abidələrini amansızlıqla qarət ediblər.

2020-ci ildə İkinci Qarabağ müharibəsində müzəffər Azərbaycan Ordusu Ermənistan silahlı qüvvələrini məğlub edərək otuz ilə yaxın işğal altında qalan torpaqlarımızı azad edib.

Hazırda Qarabağ və Şərqi Zəngəzurda işğal nəticəsində böyük ziyan görmüş abidələrimizin, memarlıq irsimizin bərpası və qorunması istiqamətində olduqca vacib və əhəmiyyətli işlər görülür.

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

Azərbaycan.- 2025.- 15 aprel (№73).- S.11.